UOT 376.3

***Elmira Mahmud qızı Kərimova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

## İNKLÜZİV TƏHSİL SİSTEMİNDƏ TYUTOR DƏSTƏYİ

***Эльмира Махмуд гызы Керимова***
*доктор философии по педагогике,*
*ведущий научный сотрудник Института Образования*
*Азербайджанской Республики*

## ТЬЮТОРСКОЕ СОПРОВОЖДЕНИЕ В СИСТЕМЕ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

***Elmira Mahmud Karimova***
*doctor of philosophy in pedagogu,*
*leadinq scientific worker at the Institute of Education*
*of the Repablic of Azerbayjan*

## TUTOR SUPPORT IN THE SYSTEM OF INCLUSIVE EDUCATION

**Xülasə.** Bu məqalədə inklüziv təhsil sistemində tyutorluq problemi araşdırılır. Məqalədə inklüziv məktəbdə problemli uşağı müşayiət edən tyutorun işi haqqında ümumiləşdirilmiş və sistemləşdirilmiş material verilmişdir. Müəllim, psixoloq və digər mütəxəssislərlə birbaşa fəal əməkdaşlıq edərək, tyutor məktəbdə uşağın emosional rahatlığını təmin edərək onun üçün aktiv inkişafa sövq edən bir mühit yarada bilər.

***Açar sözlər:*** *sağlamlıq imkanları məhdud uşaqlar, tyutorluq, tyutor dəstəyi, inklüziv təhsil, təhsil mühiti.*

**Резюме.** В статье исследуется проблема тьюторства в системе инклюзивного образования. В статье обобщен и систематизирован материал о работе тьютора, сопровождающего проблемного ребенка в инклюзивной школе. Активно сотрудничая напрямую с учителями, психологами и другими специалистами, репетитор может создать в классе среду, которая способствует активному развитию, обеспечивая ребенку эмоциональное благополучие.

***Ключевые слова:*** *дети с ограниченными возможностями здоровья, тьюторство, тьюторская поддержка, инклюзивное образование, образовательная среда.*

**Summary.** The article examines the problem of tutoring in the system of inclusive education. The article summarizes and systematizes the material on the work of a tutor accompanying a problem child in an inclusive school. By actively collaborating directly with teachers, psychologists, and other professionals, a tutor can create an environment that promotes active development while ensuring emotional well-being for the child.

***Keywords:*** *children with disabilities, tutoring, tutor support, inclusive education, educational environment.*

Övladlarımıza necə keyfiyyətli təhsil verək? Gec -tez hamı valideynlər bu sualı özlərinə verirlər. Sağlamlıq imkanları məhdud uşaqların anaları və ataları da istisna deyil - axı hər bir insanın təhsil alması vacibdir. Bundan əlavə, təlim prosesində uşaq təkcə bilik, bacarıq və vərdişləri mənimsəmir. Buna görə uşağın məsuliyyətinin, yeni şeyləri mənimsəmək istəyinin, digər insanların dünyasına cəlb olunmasının və ünsiyyət qurma qabiliyyətinin inkişaf etməsi məhz bu prosesin necə təşkil edilməsindən asılıdır.

İnklüziv təcrübələrin inkişafı da daxil olmaqla hazırda təhsil sistemində baş verən yenidənqurma sağlamlıq imkanları məhdud uşaqlara təhsil almaqda bərabər hüquqlara və uyğun təhsil marşrutunun seçilməsinə zəmanət verir.

Fərqli ehtiyacları olan uşaqların birgə təhsili müasir məktəblilərdə tolerantlığın tərbiyə edilməsinin və xüsusiyyətlərinə görə yaşamaqları çətin olan uşaqların həyatında və taleyində mümkün qədər iştirakın öyrədilməsinin bir yoludur. Xüsusi uşağa kim kömək etməli, ümumtəhsil məktəbində təhsil almaq imkanı verməli, yol göstərməlidir? Xüsusi təhsil ehtiyacı olan uşaqlar üçün uyğunlaşdırılmış proqramlar olmalı, təhsil prosesinin tibbi- psixoloji-pedaqoji dəstəyi olmalıdır.

İnklüziv siniflərdə tyutor dəstəyi lazımdırmı və sağlamlıq imkanları məhdud uşaqlar üçün tyutor kim ola bilər? Tyutor rolunda məktəb psixoloqu və ya sosial pedaqoq çıxış edə bilər. O, təkcə uşaqlarla deyil, həm də xüsusi uşaqların valideynləri ilə də qarşılıqlı əlaqədə olmalıdır. Sağlamlıq imkanları məhdud uşaqlar daima diqqət tələb edir, sinif rəhbəri isə belə uşaqların hər birinə çox diqqət ayıra bilmir. Tyutor uzun müddət sağlamlıq imkanları məhdud uşaqla birbaşa təmasda olduğu üçün həm fərdiləşdirmə, həm də tədrisə fərdi yanaşma prinsipini öz işində həyata keçirə bilər. Fərdi yanaşma müəllim tərəfindən uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq təhsil prosesinin təşkilidir, fərdiləşdirmə isə bu prinsipin həyata keçirilməsini nəzərə alaraq öyrənmə prosesinin təşkilidir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil alması, onların uğurlu sosiallaşmasının, sosial həyata tam iştirakının təmin edilməsinin, müxtəlif peşə və ictimai fəaliyyətlərdə özünü səmərəli həyata keçirməsinin əsas və ayrılmaz şərtlərindən biridir. İnklüziv təhsil formasına keçidin ən vacib şərtlərindən biri sağlamlıq imkanları məhdud uşaqları təhsil prosesində müşayiət etmək və dəstəkləməkdir.

Tyutorluq insanın şəxsi potensialını, təhsil və sosial infrastrukturu və əsas fəaliyyətin vəzifələrini nəzərə alan fərdi təhsil strategiyasının qurulmasına və həyata keçirilməsinə yönəlmiş bir təcrübədir.

Təlimin ilk mərhələlərində tyutor uşaq üçün məktəbin təhsil məkanında bələdçi rolunu oynayır. Tyutorun vəzifəsi uşağın maraqlarını və xüsusiyyətlərini nəzərə alaraq ümumtəhsil proqramından geri qalmadan təhsilini təşkil etməkdir.

İnklüziv təhsildə tyutor mövqeyi öz təməlini saxlayır, eyni zamanda yeni, xüsusi komponentlər əldə edir. Tyutor sağlamlıq imkanları məhdud uşağın təhsil müəssisəsinin təhsil və sosial mühitinə uğurla inteqrasiyası üçün şərait yaradan bir mütəxəssisdir. Müəllimlərlə və valideynlərlə sıx fəal əməkdaşlıq edərək, tyutor uşağın uğurlu təlimi və sosial uyğunlaşması üçün əlverişli bir mühit yarada bilər.

Sağlamlıq imkanları məhdud uşaqlar ümumi təhsil müəssisələrinə daxil edildikdə, təhsil müəssisəsinin işçiləri aşağıdakı vəzifələrlə üzləşirlər:

• bütün şagirdlər üçün mümkün qədər rahat təhsil məkanının yaradılması;

• hər bir uşağa aktual olan inkişaf, təlim, sosiallaşma problemlərinin həllində köməklik göstərmək;

• adekvat və effektiv təhsil proqramlarına psixoloji dəstək;

• müəllimlərin, şagirdlərin, valideynlərin psixoloji-pedaqoji səriştəsinin, psixoloji mədəniyyətinin inkişaf etdirilməsi.

Tyutorluq inklüziv təhsildə yeni bir istiqamətdir. O, uşağa yönəlmiş təsirli, çevik dəstək sistemidir. Tyutorluq təkcə fərdi təlimin deyil, həm də şagirdin şəxsiyyətinin tərbiyəsinə, motivlərinin və dəyərlər sisteminin inkişafına kömək edə bilər. İnklüziv praktikanın tətbiqi kontekstində tyutorun pedaqoji fəaliyyəti uşaqlar ilə fərdi işləməkdən, məktəblilərin gələcək peşə və ictimai həyatlarında öz müqəddəratını təyin edilməsinə kömək etməkdən ibarətdir.

Hazırda təhsil nəzəriyyəsi və praktikasında "tyutor" anlayışının və bu təriflərə uyğun təhsil sistemlərinin tərifinə bir neçə yanaşma mövcuddur. Ən məşhurları P.G. Şedrovitski, T.M. Kovaleva, N.V. Rybalkinanın tədqiqatlarında əksini tapmışdır.

Tyutor dəstəyi şagirdin təhsil motivlərini və maraqlarını müəyyən edib inkişaf etdirməyə, təhsilin fərdiləşdirilməsi və fərdi təhsil proqramı yaratmaq üçün təhsil mənbələrini axtarmağa yönəlmiş pedaqoji fəaliyyətdir. Beləliklə, tyutor dəstəyi uşağın təhsil marşrutunu təşkil etməkdən ibarət və onun müvəffəqiyyətlərinin maraq və

istəkləri ilə daimi refleksiv əlaqələndirilməsinə əsaslanan fəaliyyətdir.

Təlimin ilk mərhələlərində tyutor uşağın məktəbin təhsil məkanına bələdçisi kimi çıxış edir. P.G. Şedrovitski hesab edir ki, tyutor şagirdin məsləhətçisidir: o, uşağın fərdi təhsil proqramını hazırlamaqda, öyrənmə prosesinin özünü və bu prosesin ayrı-ayrı elementlərini təyin etməkdə kömək edə bilər. Digər tərəfdən, tyutor təlim nəticələrinin bu şəxsin fərdi inkişafı prosesində necə istifadə ediləcəyi sualına cavab verə bilər. Tyutorun fəaliyyətində əsas şagird üçün fərdi inkişaf proqramını hazırlamaq, onun resurs xəritəsi ilə işləmək və fərdi təhsil yolunu dəstəkləməkdir.

E.A. Suxanova və A.G. Çernyavskaya öz əsərlərində tyutorluğu şagirdin müəyyən inkişaf mərhələlərində təhsil fəaliyyətinə xüsusi bir dəstək növü olduğunu qeyd edirlər. Tyutor eyni zamanda şagirdin təhsil hərəkətlərinin həyata keçirilməsi və başa düşülməsi üçün şərait yaradır.

Tyutor dəstəyi şagirdə fərdi təhsil proqramının müstəqil inkişafı və həyata keçirilməsində pedaqoji dəstəyin göstərilməsini də nəzərdə tutur.

Pedaqoji dəstək şagirdin əməliyyatı yerinə yetirməsi və müəllimin bu əməliyyatı həyata keçirilməsi üçün şəraitin yaratmasını nəzərdə tutur. Dəstəyin əsas nəticələri təkcə bilik, iş üsulları və müstəqil təhsil fəaliyyəti deyil, həm də şagird tərəfindən təhsilin nəticələrinin mənası və əhəmiyyətinin dərk edilməsidir.

Pedaqoji dəstək məsuliyyətin müəllimdən şagirdə keçməsini nəzərdə tutur. G.M. Bespalova hesab edir ki, pedaqoji dəstək özünütəhsilin həyata keçirilməsinə görə məsuliyyətin müəllimdən şagirdə keçməsinin dinamik bir prosesidir.

T.M. Kovaleva hər hansı bir fəaliyyəti tyutorluq fəaliyyəti kimi qiymətləndirmək üçün əsaslar hazırlamışdır. Bunlar: diaqnostika; müxtəlif təkliflər; təkliflərin seçimi; fərdi təhsil proqramı qurmaq; fərdi təhsil proqramının həyata keçirilməsi üçün marşrutun seçilməsi; fərdi təhsil proqramının müşayiəti.

Müşayiət etməyin məqsədi, uşağın mövcud problemlərinə baxmayaraq, malik olduğu qabiliyyət və bacarıqları mümkün qədər inkişaf etdirməkdir. İnklüziv məktəblərdə təhsil prosesinin təşkili üçün müxtəlif sxemlər mövcuddur və onlara əsasən, tyutor üç tamamilə fərqli təşkilati işi yerinə yetirə bilər.

1. Tyutor xüsusi qayğıya ehtiyacı olan uşağı müşayiət edir. Mütəxəssislərin fikrincə, hazırda ən real mənzərə inklüziv sinif müəlliminin uşaqların inkişaf pozulmaları sahəsində mütəxəssis olmaması, tyutorun isə, əksinə, xüsusi təhsil mütəxəssisi olmasıdır. Bu zaman tyutor, sinifdə təhsilin keyfiyyətini aşağı salmadan, müəllimin xüsusi ehtiyacları olan şagirdin imkanlarına uyğunlaşmasına kömək edərək, şagird üçün tədris prosesini incə və aydın şəkildə quran bir mütəxəssis funksiyasını öz üzərinə götürür.

2. Tyutor müəllimin köməkçisidir. Bu vəziyyətdə dərs yükü müəllim tərəfindən formalaşdırılır və tyutor təşkilati anlarda onun köməkçisi kimi çıxış edir, müəllimin tapşırıqlarını yerinə yetirərkən sinifdə intizama nəzarət edir və s.

3. Tyutor sinifdə ikinci müəllimdir. Uşağı müstəqil təhsil ala bilməyən bəyan etmək onun hüquqlarının pozulması hesab olunur. Sinifdə iki müəllim bütün uşaqların öyrənməsinə kömək edir, lakin problemli uşağa daha çox dəstək və kömək göstərir.

Bundan əlavə qeyd edək ki, hər kəs sağlamlıq imkanları məhdud uşaq üçün tyutor kimi fəaliyyət göstərə bilməz. Belə uşaqları müşayiət edən mütəxəssislərin peşə və şəxsi hazırlığına xüsusi tələblər irəli sürülür:

- inklüziv təhsilin nə olduğunu, ənənəvi təhsil formalarından nə ilə fərqləndiyini təqdim etmək və anlamaq;
- uşağın yaş və fərdi inkişafının psixoloji qanunlarını və xüsusiyyətlərini bilmək;
- sağlamlıq imkanları məhdud uşağa sosial mühitin qarşılıqlı təsirinin xüsusiyyətlərini təhlil etmək bacarığı;
-təhsil mühitinin bütün subyektləri arasında (şagirdlərlə fərdi və qrup halında, valideynlərlə, müəllimlərlə, mütəxəssislərlə, rəhbərliklə) müxtəlif pedaqoji əlaqə metodlarını tətbiq etmək bacarığı.

Tyutorluq uşağa yönəlmiş effektiv, çevik təhsil sistemi qurmaq üçün vacib bir resursdur. Tyutor dəstəyinin inklüziv praktikaya tətbiqi bütün təhsil sisteminin yenidən qurulmasına, fərdiləşdirilməsinə kömək etməlidir.

Beləliklə, tyutorun köməyi və dəstəyi məqbul şəkildə təyin olunmalı, uşağı müstəqil olmağa yönəltməli və təşviq etməlidir. Tyutor ilə uşaq

arasındakı qarşılıqlı əlaqə tyutor ilə ünsiyyətdən məktəb həyatında uşağın maksimum dərəcədə müstəqilliyinə gedən mütərəqqi bir yoldur.

**Problemin aktuallığı.** İnklüziv məktəb mühitində tyutorluq pedaqoji fəaliyyət kimi effektiv, çevik, uşaqyönlü dəstək sistemi yaratmaq üçün vacib mənbəyə çevrilə bilər. İnklüziv praktikanın tətbiqi kontekstində tyutorun pedaqoji fəaliyyəti təhsildə və sosiallaşma prosesində sağlamlıq imkanları məhdud uşaqlarla fərdi işin təşkil edilməsindən ibarətdir.

**Problemin elmi yeniliyi.** Tyutor təhsil prosesini daha təsirli edəcək bir mütəxəssisdir. Müasir ali təhsil üçün tyutorluq yenilik deyil. Lakin inklüziv məktəbdə buna daha da çox ehtiyac duyulur. Sinif müəllimi hər bir uşağa diqqət yetirə bilmir. Sağlamlıq imkanları məhdud uşaqlar böyüklərdən daha çox diqqət tələb edir və inklüziv sinifdə tyutorun olması vacibdir.

**Problemin praktik əhəmiyyəti.** Tövsiyə xarakterli bu məqalədə inklüziv təhsil sistemində tyutorun fəaliyyətinin məqsədləri, vəzifələri və əsas istiqamətləri, sağlamlıq imkanları məhdud uşaqlara tyutor dəstəyinin təşkil edilməsi mərhələləri təsvir edilmişdir.

**Ədəbiyyat:**


1. Карпенкова, И.В. Тьютор в инклюзивной школе. – Москва: ЦППРиК «Тверской», -2010.-116 стр.
2. Ковалева, Т.М., Профессия «тьютор»./Т.М. Ковалева, Кобыща Е.И., Попова С. Ю., Теров А. А., Чередилина.- Тверь: «СФК-офис».- 2012.-246 стр.
3. Куликова, М. Ю. Тьютор в системе сопровождения образовательной деятельности студентов с ограниченными возможностями здоровья. – Москва: Изд. «Молодой ученый».-2012.-342 стр.


**E-mail:** ema.umudova@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok , dos.* **M.S. Kazımov.**
*ped.ü.fəls.dok* **R.R. Məmmədzadə**
**Redaksiyaya daxil olub:** 28.09.2021.